*Nüşabə ARASLI*



# SƏADƏT GÜNƏŞİ BİRLİKDƏN DOĞAR

Nizami Gəncəvinin dünyəvi şöhrət qazanmış ölməz irsi şairi yetirən doğma torpaqla bağlı olub, Azərbaycan xalqının maddi və mənəvi zənginliklərindən ayrılmazdır. Vətənin keşməkeşli tarixini dərindən bilən böyük sənətkar əsərlərində sevimli Gəncədən həmişə böyük qürur hissilə danışmış, doğma xalqının əski kitablarda oxuduğu, xalq sənətkarları və müdrik qocaların söhbətlərindən eşitdiyi tarixi əzəmətini, bilavasitə müşahidə etdiyi nəcib sifətlərini, gözəl adət-ənənələrini məhəbbətlə tərənnüm etmişdir. Nizami sənətinin dərin bəşəri əhəmiyyətini, təkrarsız sənət ecazları, fikri və poetik nailiyyətlərini də sevimli yurdunun təbii və mənəvi gözəlliklərindən ayrı təsəvvür etmək mümkün deyildir. Ustad sənətkar sənət aləmindəki misilsiz qüdrətini ana vətənin bəxş etdiyi müqəddəs nemət bilmiş, özünü söz sənətinin "mahir sehrkarı" adlandırarkən Gəncəni də sehrbazlar yurdu Babillə müqayisə etmiş, öz uğurlarını doğma yurdun mənəvi sərvəti kimi qiymətləndirmişdir.

***Ancaq söz qulduru şəfəq sökərkən,***
***Qələmi yonaraq mişkin söyüddən.***
***Fikrimi qapırlar, könlüm əmindir,***
***Buxaraya getsə o, Gəncənindir.*** [1]

Onu da qeyd edək ki, Nizami Gəncəni doğma Azərbaycan və ümumiyyətlə, türk mühitindən ayrı götürməmiş, onu vətənin qədim və zəngin tarixinin bir parçası kimi tərənnüm etmiş, əsərlərində Dərbənd, Şirvan, Bərdə və başqa Azərbaycan şəhərlərindən də eyni məhəbbətlə söz açmışdır.

Nizami əsərlərində ayrı-ayrı tarixi şəxsiyyətlərin həyatından bəhs olunsa da, dahi şair oxucularına çatdırmaq istədiyi bəşəri düşüncələrini onlarla bağlı təsvir olunan əhvalatlarda təqdim etmişdir. Şairin əsərlərindəki rəngarəng təbiət mənzərələrinin təsvirlərində də barlı-bərəkətli Azərbaycan torpağının özünəməxsus gözəllikləri əksini tapmış, doğma Gəncənin mülayim havası, səfalı çəmənlikləri, sərin çeşmələri, gur meşələri, Kəpəz, Göygöl kimi nadir təbiət incilərinin füsunkar mənzərələrinin əzəməti tərənnüm olunmuşdur.

Nizami ana vətənin şərəfli tarixini, doğma xalqın qurub-yaratmaq istedadını iftixarla qələmə alır. Şairin əsərlərində qarşılaşdığımız qoca əkinçi, kərpickəsən, bağban və başqa zəhmət adamları, müxtəlif sənətkar obrazları da şairin hər gün təsadüf etdiyi, təmasda olduğu həmvətənlərinin bədii prototipləridir.

Əsərlərində qəhrəmanlarını dəfələrlə Azərbaycana gətirən şair “Xosrov və Şirin”də bu ölkənin təbii zənginlikləri ilə yanaşı, onun Əfrasiyab soylu qadın hökmdarı Məhin Banu barədə Şapurun dili ilə deyir:

***Dərbənd dənizinin bir sahmanında,***
***Bir gözəl ölkə var dağlar yanında.***
***Şahzadə qadındır orda hökmüran,***
***Qaynaşır qoşunu İsfahanacan.***
***Arrandan başlamış Ərmənə qədər,***
***Onun fərmanına boyun əyirlər.***
***Cürətdə kişidən heç geri durmur,***
***Böyük olduğundan Məhin Banudur.***[2]

Nizami ağıllı, ədalətli bir dövlət xadimi kimi yüksək dəyərləndirdiyi Məhin Banunun qardaşı qızı və vəliəhdi olan Şirinin, onun at minən, ox atan, çövkən oyununda, ov zamanında göstərdikləri məharətlərilə hamını heyrətə gətirən rəfiqələrini də rəğbət hissilə təqdim edərək yazırdı:

***Qamətləri sanki sərvdir qıvraq,***
***Yeriş-duruşları qırqovul sayaq.***
***Fil dişini, aslan çəngini onlar,***
***Gücə qalsa birdən dartıb çıxarar.***
***Behişt huriləri tapsa da şöhrət,***
***Onlar huridirlər, bu yersə cənnət.***[3]

“İskəndərnamə” əsərində də qəhrəmanının Azərbaycana gəlişi ilə bağlı Azərbaycan ölkəsindən danışan Nizami yaz-qış çiçəklərlə bəzənən, quş südü belə tapılan Bərdənin gözəl təbiətini, onun keçmiş iqtisadi-mədəni qüdrətini qürurla xatırlayır. Nizami Bərdənin zəmanəsindəki viranə vəziyyətini ürək ağrısı ilə qələmə alır. Ancaq doğma xalqının vətənpərvərliyinə əmin olan, onun tarixi qəhrəmanlıq ənənələrinə sadiq qalacağına ürəkdən inanan şair ümidsiz də olmayıb, ölkənin əvvəlki abad vəziyyətinin yenidən bərpa olunacağına şübhə etmirdi:

***Yenidən gözəlcə bəslənsə diyar,***
***Get-gedə gözəllik, yaşıllıq artar...***
***Bu mərdlər, gözəllər yurdunda, inan,***
***Çox saysız xəzinə gizləmiş zaman.***
***Belə şux, sevimli guşə harda var?***
***Harda var xəzinə saçan bu diyar?***[4]

Onu da qeyd edək ki, Nizami əsərində Bərdənin tərifinə həsr olunan hissəni Firdovsi “Şahnamə”sindəki Mazandaranın tərifinə yazılmış:

***Ke Mazəndəran şəhr-e ma yad bad,***
***Həmişə bər-o buməş abad bad.***
***Ke dər bustanəş həmişə qol əst,***
***Be kuh əndərun lale vo sonbol əst...***[5]

(Bizim Mazandaran şəhəri heç unudulmasın, onun ətrafı və özü həmişə abad olsun. Çünki bağçalarında həmişə gül var, dağlarında lalə və sünbül var...) – misraları ilə başlayan şeirlə müqayisə edən iranlı ədəbiyyatşünas Barat Zəncani bu barədə belə yazır: “Mazandaranın Firdovsi tərəfindən belə tərif olunması Nizamini mütəəssir etmiş, onda həsəd hissi doğurmuş, o da Bərdəni Firdovsi kimi təriﬂəmişdir.”[6]

Doğrudur, sözü gedən hər iki poetik parça məzmun və bədii ruhu ilə müəyyən dərəcədə bir-birinə yaxındır. Ancaq “həsəd hissi doğurmaq” bir qədər yerinə düşmür. Ola bilər ki, Firdovsinin Mazandaranı vəsf edən bu

misralarındakı vətənpərvərlik duyğularının səmimi ifadəsi vətənə və doğma xalqına ürəkdən bağlı olan şairin sənətkar təbiətinə daha uyğun olduğundan, onda vətənpərvərlik hisslərini bir daha coşdurmuş və Bərdənin belə məhəbbətlə təsvirində də müəyyən mənada öz təsirini göstərmişdir. Hər halda, hər iki təsviri vətənpərvərlik ruhu, təsvir obyektinə sonsuz məhəbbət birləşdirir.

Bununla belə, "Bərdənin tərifi"ni Firdovsi təsirilə yazılmış, yaxud adı çəkilən tədqiqatçının dediyi kimi, "nəzirə" də adlandırmaq doğru olmazdı. Məzmunla bağlı və tarixə müraciətlə yazılmış bu parça şairin öz sənətkar təbiətinin məhsulu olub, bəlkə də Firdovsiyə cavab, onun sələfilə, bir növ, sənət yarışıdır.

Göründüyü kimi, Nizami Azərbaycana və onun tarixi yerlərinə mükəmməl bələd olan, ona dərin məhəbbət bəsləyən vətənpərvər kimi çıxış edir. Şair hələ zəlzələdən qabaq "İnhiraq" adlandırdığı Kəpəz dağının tarixindən söz açır, Kəpəzin parçalanması və dağdan atılmış daşların vəziyyəti, Göygölün əmələ gəlməsini təsvir edir. İskəndərin Azərbaycana gəlişi ilə bağlı Cənubi Azərbaycanda olan atəşgədələr haqqında danışır:

***Aqillər məsləhət gördülər ona,***
***Oradan tərpənsin Azərbaycana.***
***Gəlirkən hər yerdə ki, atəş gördü,***
***Zəndi məhv elədi, odu söndürdü.***
***O yerdə alovlu od çıxar daşdan,***
***Məcuslar deyirdi: "Özündən yanan".***
***Yüzlərlə xidmətçi tapmış zər-zivər,***
***Pərəstiş etməyə bağlamış kəmər.***[7]

Nizami xalq sərvətinin saxlandığı atəşgədələrin İskəndərin əmrilə yerlə yeksan edilməsini Azərbaycan mədəniyyətinə vurulan ağır zərbə kimi dəyərləndirir.

***İranda adətdir keçmişdən bəri,***
***Atəşgədə idi alimlər yeri.***
***Orda saxlanırdı sərvət, xəzinə,***
***Düşməsin başqa bir şəxsin əlinə.***
***Hər sonsuz varlı da "savabdır" deyib,***
***Malını qoyardı atəşgədəyə.***[8]

Şair doğma yurdu Gəncədə baş verən zəlzələnin bu şəhərə vurduğu böyük zərəri də kədərlə yada salır, zəlzələ nəticəsində məhv olmuş maddi-mənəvi dəyərlər barədə ürək ağrısı ilə söz açır.

Nizami sənətində Vətən anlayışı son dərəcə yüksək və şərəfli yer tutur. Şairin müsbət qəhrəmanları vətənlə bağlı olan və həmişə vətənin taleyini düşünən, ona sədaqətlə xidmət edən adamlardır. Dahi şair doğma Vətənə dair kövrək xatirələrini əsərlərində yaratdığı obrazlara mənsub etdiyi vətənpərvərlik duyğularında, vətənin səadəti və ana torpağı qorumaq uğrunda göstərilən mətanət, fədakarlıq kimi sifətlərdə canlandırmışdır. Nizami öz təsvirlərində imkan düşdükcə vətən torpağının müqəddəsliyindən söz açır, heç bir ölkənin, heç bir rahat məkanın Vətəni əvəz edə bilmədiyini bildirir. "İskəndərnamə"də oxuyuruq:

***Xoş gəlir dünyanı ölçən ərlərə,***
***Calasın səfəri başqa səfərə.***
***Görsün hər ölkədə yeni bir adət,***
***Olsun hər mənzildə azacıq rahət.***
***Azacıq düşünsən bir nöqtə vardır,***
***Hər kəs öz şəhrində bir şəhriyardır.***

***Öz şəhrində olsan sadə bir insan,***
***Yaxşıdır qürbətdə sultan olmaqdan.***[9]

Şairə görə, ana torpağın bərəkəti həmişə uğur gətirir, doğma ab-hava, el xeyir-duası insanın mənəvi qüdrətini artırır.

Nizaminin Vətənlə bağlı düşüncələrində doğma yurdun müdafiəsi, vətən yolunda, el-oba yolunda fədakarlıq tərbiyələndirən, təcavüzkarlara nifrət oyadan maraqlı mülahizələrlə də tez-tez qarşılaşırıq. Doğrudur, Nizami insanları həmişə dinc, müharibəsiz həyata dəvət etmiş, qəsbkarlıq məqsədilə aparılan qanlı müharibələrdən çəkindirməyə çalışmışdır. Bununla belə, şair ana torpağı müdafiə etmək, ölkədə əmin-amanlığı qorumaq məqsədilə vuruşan, minlərlə insanın həyatı bahasına başa gələn müharibə törədənləri cilovlamağı, azğın qəsbkarları layiqincə cəzalandırmağı zəruri saymışdır:

***Düşmənin olsa qaniçən zülmkar,***
***Nəzakət göstərsən, qorxaqlıq sayar.***[10]

Məhsuldar torpaqları, təbii zənginlikləri, əlverişli strateji mövqeyi ilə yadellilərin daima diqqətini cəlb edən Azərbaycan torpağının keşməkeşli tarixini son dərəcə həssaslıqla izləyən Nizami tez-tez xaincəsinə edilən basqınlara, qanlı təcavüzlərə məruz qalan xalqının ağır döyüşlərdə mətinləşən azadlıqsevər təbiətinə, əsarətə, qəsbkarlara olan coşqun qəzəbinə də yaxşı bələd idi. Məhz buna görə də onun əsərlərində şairin vətənə olan məhəbbət duyğularının səmimi ifadəsini igidlik, qəhrəmanlıq, fədakarlıq kimi yüksək sifətlər tamamlayır.

Klassik Şərq poeziyasında romantizmin ilk parlaq nümunəsi olan “Xosrov və Şirin” poemasına nəzər salaq. Bəhram Çubin adlı bir sərkərdə yalan sözlər, böhtanlarla gənc şahzadəni hakimiyyətdən uzaqlaşdıraraq, onun taxt-tacını ələ keçirir. Xosrov isə çıxış yolunu qaçmaqda görərək başını götürüb sevgilisi Şirinin yanına Azərbaycana gəlir. Nizami hər şeyi unudub yalnız öz qəlbinin istəklərini düşünən İran şahzadəsini Şirinin dili ilə məzəmmət edərək, onun vətəni düşmən əlində qoyub başını götürüb qaçmağını bağışlanmaz eyib sayır.

Qədim Azərbaycan torpağının şöhrətli hökmdarı Məhin Banunun layiqli xələfi olan Şirinin canından artıq sevdiyi Xosrova söylədiyi nəsihət səciyyəli sözlər bu gün həmişə olduğundan daha aktual, daha ibrətamizdir:

***Bu dövlət əzəldən əlinizdədir,***
***Çox eyb olsun indi əlindən gedir.***
***...Cavansan, şir kimi cəsarətin var,***
***Padşahlıq etməyə ləyaqətin var.***
***Almışdır o oğru tamam varını,***
***Güclə qəsb etmişdir iqtidarını.***
***Qılınc al, meydanda özünü göstər,***
***Məhv olsun qurduğu bütün hiylələr.***
***Ölkəni fitnədən xilas edərək,***
***Hünərini göstər bir dəfə görək...***
***Kömək eyləyərəm mən də bacarsam,***
***Bacarmasam dua edərəm mudam.***[11]

Nizaminin öz vətənpərvərliyi ilə seçilən qəhrəmanlarından biri də Sasanilər sülaləsindən olan I Yezdəgerdin oğlu Bəhram Gurdur. Yezdəgerdin ölümündən sonra onun zülmündən cana gəlmiş iranlılar Bəhramı taxt-taca yaxın buraxmırlar. Gənc şahzadə atasının xalqla rəftarından xəbərsiz olduğunu bildirir və qanuni varisi olduğu taxt-tacı qaytarmaq üçün ən qorxulu şərtlərdən belə çəkinməyərək vəhşi şirlərlə üzləşir.

*Taca varis edib atalar məni,*
*Öldürər bilirəm ayıb-ar məni,*
*Qismət olarsa bu mirasım yada.*[12]

Ata-babaların müqəddəs yadigarının yadlar tərəfindən mənimsənilməsini qüruruna heç cürə sığışdıra bilməyən Bəhram qərarından dönməyəcəyini bildirərək:



*Mən yadlar evində əziyyət çəkim,*
*Olsun talançılar elimə hakim.*
*Düşmənin yediyi şəkərim olsun,*
*Mənimsə qismətin cigərim olsun.*[13]

-deyir. Vətəni, xalqını sevən şahzadə şahlıq tacını iki şirin əlindən almaqla həm də bütöv bir elin sərvətini qoruyur. O, ölkəsinə hücum edən Çin xaqanına vətənə olan dərin məhəbbəti, yüksək vətənpərvərliyi, igidliyi sayəsində qalib gəlir.

Əsərlərində Vətən mövzusuna tez-tez müraciət edən şair bu problemlə bağlı müxtəlif məsələləri də işıqlandıraraq, onun hərtərəfli həllinə müvəffəq olur. Şair insanlığa düşmən, abad ölkələri viranəyə çevirib məhv edən, bəşəri dəyərləri qiymətləndirməyi bacarmayan gözüac qarətgər ölkə başçılarının alçaq niyyətlərini nifrətlə lənətləyərək onları oğrular, hiylə ilə dinc əhaliyə xaincəsinə basqın edən quldurlar adlandırır. "İskəndərnamə"də düşməni, qandan gözü doymayan, Misiri viran qoyan Pələngərə, xalqını ağır vergidən qurtarmaq məqsədilə Daraya qarşı qəti mübarizəyə qalxaraq görünməmiş igidliklər göstərərək zəfər qazanır. Daranın sərxoş olduğunu ona xəbər verib qəflətən hücum etməyi təklif edənlərə İskəndər:

***Yararmı yüyəni parlaq İskəndər,***
***Adi quldur kimi qazansın zəfər***[14] **-**

deyərək bunu özünə sığışdırmır.

Şairin vətənlə bağlı görüşlərində ana yurdun müdafiəsi, xalqın əmin-amanlığının qorunması hərtərəfli işıqlandırılır. Vətənin azadlığı, xalqın dincliyi, əmin-amanlığı uğrunda aparılan müharibəni həmişə alqışlayan Nizami özgə mülkünü ələ keçirmək məqsədilə qəfildən basqın edən, arxadan zərbə vuran, qəsbkarlıq niyyətlərini hiylə, yalan yolu ilə həyata keçirən təcavüzkarların şərəfsiz mübarizələrinin məğlubiyyətlə nəticələnəcəyinə ürəkdən inanırdı. Quldurluqla, qətlü-qarətlə məşğul olan, mərdlikdən uzaq düşmən döyüşçülərinin rəzil simasını İskəndərin dili ilə ifşa edən şair vuruş meydanında igidliklə döyüşməyi, cəsarət göstərməyi, vuruş qaydalarına riayət etməyi tövsiyə edirdi.

***Dedi: düşmənimiz dava görməmiş,***
***Aslanla vuruşa etməmiş vərdiş.***
***Quldurluq, oğurluq, bir də yol vurmaq,***
***Düşmənin mərdliyi, bax, budur ancaq.***[15]

Şair ilk növbədə orduda ciddi intizam yaratmağı, döyüş qaydalarına əməl etməyi, hər şeydən əvvəl isə, qələbəyə ürəkdən inanmağı zəruri sayır. Ordu içərisində möhkəm birlik, anlaşma və mehribançılığı da Nizami qələbənin əsas şərti kim dəyərləndirir:

***Birlikdən yaranıb zəfər döyüşdə,***
***Dostların birliyi gərək bu işdə.***
***Orduya ki, böyük zəfər, şan gələr,***
***Ürəyi bir olan dostlardan gələr.***
***Bir olan iki qəlb dağı parçalar,***
***Böyük orduları edər tarumar.***
***Bir olsa yoldaşın, dostun əməli,***
***Daşdan su çıxarar onların əli.***
***Nifaq olan yerdə fəlakət də var,***
***Səadət günəşi birlikdən doğar.***[16]

Nizami döyüş zamanı qorxaqlıq göstərməyin, şübhə və tərəddüdə yol verməyin ağır nəticələrindən danışmış, hünərli insanın həmişə zəfər qazanacağını maraqlı səhnələrlə oxucularına təqdim etmiş, inam və qətiyyətlə döyüşə girməyi lazım bilmişdir. "Şərəfnamə"də zənci şahı Pələngər İskəndərin onun yanına göndərdiyi elçinin (Tutiyanuşun) qanını şüşəyə tutaraq hamının gözü qabağında içir. Pələngərin bu hərəkəti İskəndərin ordusu içərisində bir

vahimə, çaxnaşma salır, döyüşçülər zəiflik göstərməyə başlayırlar. İskəndər kömək üçün Ərəstuya müraciət edir. Ağıllı vəzir şaha ilk növbədə ordu içərisindəki vahiməni, qorxu hisslərini yox etməyi, özünün nəhəng, qaniçən düşməndən daha qorxunc olmasına düşmən tərəfi inandırmağı məsləhət görərək deyir:

***Meydanda düşməndən qorxarsa ordu,***
***Su gətir zəfərdən əllərini yu.***[17]

Doğrudan da İskəndər buna nail olandan sonra ordunun qələbəyə olan əvvəlki inam hissi yenidən bərpa olunur.

Nizami əsərlərində, xüsusilə “İskəndərnamə”də sarayda təşkil olunan elmi-fəlsəfi məclislərdə şahla dünyagörmüş bilicilər arasında ölkənin müdafiəsi ilə bağlı ordu cəsarəti, təcrübəli sərkərdə, nizam-intizam və başqa məsələlər ətrafında maraqlı mükalimələr aparılır. Bu isə, hər şeydən əvvəl, Vətən və onun müdafiəsi mövzusunu şairin daima diqqət mərkəzində saxladığını və onun hərtərəfli həllinə böyük əhəmiyyət verdiyini bir daha təsdiq edir. Şahın “düşməni necə yenmək olar?” sualına Fəriborz adlı qoca pəhləvan belə cavab verir:

***Şahım, ordu çəkmək cəsarət istər,***
***Heç aciz olarmı igid hünərvər.***
***Ordunu meydana çəkərkən gərək,***
***Padişah ummasın ondan bir kömək.***
***Mətanət sənindir, kömək Tanrıdan,***
***Bunlardır ordunu mətin saxlayan...***
***Uğurlu zamanda zəfər gözləyən,***
***Düşmən qorxusunu silsin könlündən.***[18]

Nizami İranın əzəmətli şahı Daranın yerləri-göyləri lərzəyə salan qüdrətli ordusunun məğlubiyyətinin əsas səbəbini də qoca pəhləvanın dili ilə onun qorxaq ürəklə döyüşə girməsində görür. Nizamiyə görə döyüşçü öz ürəyini qırmamalı, qorxu hissini yaxına buraxmamalıdır. Şair tarixə nəzər salır. Rüstəmin Fəramərzə, Bəhmənin İsfəndiyara nəsihətlərini xatırladır:

***Zal oğlu söyləmiş mərd Fəramərzə,***
***Könlünü qırma, sal Elburza lərzə.***
***Bəhmənə söyləmiş həm İsfəndiyar,***
***Könlünü qırmayan bir ordu qırar.***
***Çünki öz qəlbini qırmışdı Dara,***
***Qanını qorxaqlıq tökdü daşlara.***
***Qorxulu ürəklə meydana girdi,***
***Lakin qorxusunu o gizlədirdi.***
***Qəlbinə bir işıq salmadı diqqət,***
***Oldu bu döyüşdə torpağa qismət.***[19]

Nizami əsərlərində düşmən orduların üzləşməsi, qanlı vuruş səhnələri, qəhrəmanlıq, qalib tərəfin sevinci, məğlubiyyət acısı və başqa təsvirlərlə yanaşı, bunlarla bağlı şairin rəyi də öz əksini tapmış, döyüşçü şücaəti, sərkərdə qayğısı, qətiyyət, igidlik, xəyanət barədə bu gün də əhəmiyyətini itirməmiş diqqətəlayiq fikirlər söylənilir. Dahi şair zəmanə hökmdarlarına vətən və xalqın taleyi üçün daşıdıqları məsuliyyəti xatırladarkən, onlara həm də ayıq olmağı, öz gücünə həddindən artıq çox arxayın olmamağı tapşırır, bəzən kiçik düşmənin böyük bəla olduğunu bildirirdi.

***Xord məbin gərçi şəvəd xordkin,***
***Xord şəvi gər nə şəvi xordbin.***[20]

*(Düşmən kiçik olsa da, onu sən xırda bilmə,*
*Əgər xırdalıqları görməsən, əzilərsən.)*

Nizami yaradıcılığı bu baxımdan izlənilərsə, vətən mövzusunun "Xəmsə"nin bütün poemalarında bir neçə yerdə hər dəfə də orijinal bədii biçimdə əksini taparaq, Nizami şeirinin daimi problemlərindən birinə çevrildiyinin şahidi oluruq.

***Ümidin qırılsa, ürəkdən çalış,***
***Mərdin qulağını buran olmamış.***[21]

* * *

***Hünərli dünyada təxtü tac alar,***
***Alçalmaz, hər zaman başı ucalar.***[22]

* * *

***Kiçik düşmən ən böyük bir bəladır, bunu bil,***
***Böyük xətadır xəbər tutmayıb olsan qafil.***[23]

* * *

***Qurdluqla mümkündür qurtulmaq qurddan,***
***Cəhlə qarşı verər cəhalət ziyan.***[24]

* * *

***Ümidsiz qaş çatma, aç bir gözünü,***
***Zəfər güzgüsündə gör öz üzünü.***[25]

Nizami şeirində vətənə sevgi duyğuları əzm, dəyanət tərbiyələndirən hikmətli beytlər istənilən qədərdir. Bütün bunlar ulu şairimizin həm də gələcək nəsillərə müraciəti olub, bu gün də ana torpaq, doğma vətən uğrunda qəti mübarizəyə qalxan igid vətən oğullarına qiymətli öyüdü, müqəddəs xeyir-duası kimi səslənməkdədir. Söz yox ki, bu günlərdə Nizami dühasından ilham alan cəsur döyüşçülərimiz şairin vətənlə bağlı qiymətli tövsiyələrini həmişə yadda saxlayacaq, doğma xalqın qədim qəhrəmanlıq ənənələrinə sadiq qalaraq, Şəhidlərimizin qanları bahasına düşmən tapdağından azad edilən müqəddəs Vətən torpağını mərdliklə qoruyacaqlar.

**Ədəbiyyat:**


1. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 32
2. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, Yazıçı, 1982, s. 63
3. Yenə orada, s. 66
4. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 203
5. زنجانی، برات. صور خیال در خمسه نظامی. تهران، 1377، ص 48
6. Yenə orada
7. Nizami Gəncəvi, İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 174
8. Yenə orada, s. 172
9. Yenə orada, s. 311
10. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, Yazıçı, 1982, s. 143
11. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, Yazıçı, 1982, s. 85
12. Yenə orada, s. 88
13. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 106
14. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, Yazıçı, 1982, s. 132
15. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982, s. 80

16 - 25. Yenə orada